# 2019-cu ilin dövlət büdcəsi layihəsi hazırlanıb

Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin payız sessiyasında ilk iclası keçirildi.

Komitənin sədri Ziyad Səmədzadə əvvəlcə Prezident İlham Əliyevin Milli Məclisin 100 illik yubiley iclasında çıxışına toxunaraq bildirdi ki, dövlət başçısı parlamentin fəaliyyətinə çox yüksək qiymət verdi.

Sonra diqqətə çatdırıldı ki, komitə 2018-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində öz fəaliyyətini qanunvericilik işləri planına uyğun şəkildə həyata keçirib. Yaz sessiyası dövründə komitədə 15 iclas keçirilib, bu iclaslarda 62 məsələ, o cümlədən 61 qanun layihəsi geniş müzakirə edilib.

Sonra gündəlikdəki məsələlərlə bağlı müzakirələr başlandı. İlk olaraq komitənin payız sessiyası üçün işlər planı təsdiq edildi. Komitənin sədri payız sessiyasının işlər planına 18 məsələnin daxil edildiyini diqqətə çatdırdı və həmin sənədlər komitənin dünənki iclasında geniş müzakirə olundu.

Öncə komitənin üzvləri "Aviasiya haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlarda nəzərdə tutulan dəyişikliklərə müsbət münasibət bildirdilər. Eyni zamanda Vergi, Gömrük, Mülki və İnzibati Xətalar məcəllələrində dəyişikliklər edilməsi barədə qanun layihələri də müzakirə edilərək parlamentin plenar iclasına tövsiyə olundu.

Komitənin sədri bildirdi ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının təklifləri əsasında Mülki Məcəllə ilə "Banklar haqqında" qanun arasında ziddiyyətlərin aradan qaldırılması məqsədilə sözügedən qanuna dəyişikliklər edilməsi təklif olunur. Sənəd müzakirəyə çıxarıldı və müsbət rəy aldı.

"Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında" qanun layihəsinə əsasən isə istehsalatdan ayrılmaqla təhsil almağa göndərilən tələbələrə, doktorantlara və magistrlərə müəssisə və təşkilatların hesabına ödənilən təqaüd məbləğləri gəlir vergisindən azad olunur.

İclasda həmçinin "İpoteka haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edildi. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Standartlaşdırma haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Lotereyalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri də müzakirə edilərək Milli Məclisin plenar iclasına tövsiyə olundu.

İclasda həmçinin 2019-cu ilin dövlət büdcəsi layihəsinin müəyyən edilmiş müddətdə Milli Məclisə təqdim ediləcəyi diqqətə çatdırıldı.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 25 sentyabr.- S.2.